Azərbaycan.- 2021.- 3 aprel. S. 3.

# "OPEC+" nazirlərinin növbəti iclasının vaxtı açıqlanıb

**OPEC və OPEC-ə üzv olmayan bəzi ölkələrin ("OPEC+") Nazirlərinin Birgə Monitorinq Komitəsinin (JMMC) növbəti - 29-cu iclası aprelin 28-də keçiriləcək.**

AZƏRTAC OPEC-ə istinadla xəbər verir ki, "OPEC+" nazirlərinin 16-cı toplantısı da videokonfrans formatında həmin gün təşkil olunacaq.




"OPEC+" Müştərək Texniki Komissiyasının (JTC) iclasının bir gün əvvəl keçirilməsi planlaşdırılır.

Qeyd edək ki, dünən keçirilən "OPEC+" nazirlərinin 15-ci videogörüşündə gündəlik xam neft hasilatının növbəti 3 ay ərzində tədricən 1,1 milyon barelədək artırılması ilə bağlı qərar qəbul edilib.

Xatırladaq ki, JTC və JMMC 2016-cı il dekabrın 10-da Avstriyanın paytaxtı Vyanada təşkil edilən OPEC və OPEC-ə üzv olmayan ölkələrin nazirlərinin ilk toplantısında imzalanan tarixi "Əməkdaşlıq Bəyannaməsi" çərçivəsində yaradılıb. JTC neft bazarına dair təhlillər aparan və JMMC-yə təqdim edən texniki düşüncə mərkəzidir.